# FƏDAKARLIĞIN ZİYALI NÜMUNƏSİ

## Tariyel Abbaslının 70 illiyinə bir neçə söz...



*Ənvər İMANOV*

**Hörmətli Əli Rza Xələfli!**
**Əziz dost, xeyli vaxtdır ki, hər birimizin dostu, qardaşı Tariyel Abbaslının 70 illiyi münasibəti ilə hazırladığım müxtəsər bir yazını sizə təqdim edirəm. Məsləhət bilsəniz qəzetinizdə dərc olunmasını xahiş edirəm.**

Hörmətli Tariyel Abbaslı, - tələbə yoldaşım, tələbəlik dostum, qardaşım, sirdaşım. Mən öyrəndim ki, sizin 70 yaşınız əslində fevral ayının 9-da tamam olur. Həmin vaxt Cəbrayıla güclü qar yağdığına görə yollar bağlı olub, doğum tarixini Vətəndaşlıq Vəziyyətinin Qeydiyyatı şöbəsində sonradan qeydə alıblar. Fərqi yoxdur ki, qeydiyyat nə zaman aparılıb,sənin ad gününün - 70 illik yubileyin münasibəti ilə istəyirəm ki, qəlbimdən keçən bir neçə kəlməni qeyd edim. Sənin yaşadığın həyat,ömür yolu bütün şirin sözlərə, müəllim sözlərinə, həmkar sözlərinə, dost sözlərinə,təbriklərinə layiqdir,çünki mənim tanıdığım Tariyel Abbaslı ləyaqətli bir insandır. Tariyel Abbaslı indiki zəmanəmizdə əhatəsində olduğumuz, 70 yaşına çatan insanların, hesab eləyirəm ki, mənə ən yaxınlarından biridir. Bu mənada çox kitabları vərəqlədim və bir şeir seçdim; çünki hər bir insanın ömrü bir şeirdir. Bu yerdə, bu dəfə misal gətirəcəyim şeir, dedim, böyük şairimiz Rəsul Rzadan olsun, çünki bu bir tarixdir, deyiləcək sözlər də tarix olaraq qalası sözlər olmalıdır. Bəxtiyar Vahabzadənin fəlsəfi misralarını da incələdim, müxtəlif fəlsəfi-yorumlarını nəzərdən keçirdim.Amma, sonda əvvəlki seçimimə döndüm. Bir şeirin üzərində dayandım. Rəsul Rzanın həmin şeiri "İki nöqtə arasında" adlanır. İstəyirəm o şeirdən bir hissəni diqqətinə çatdırım:

İnsan ömrü nədir?
ilk qışqırıqdan
son sükuta qədər olan bir yol.
Bu "ilk" və "sonun" arası doludur:
Ana şəfqəti, vüsal,
intizar, düşmən nifrəti,
məhəbbət acısı,
dost əlinin hərarəti,
arzuların ağrısı,
ümid qüvvəti.
Nə qədər çox olsa yenə,
az olan sevinclə,
nə qədər az olsa yenə
çox olan kədərlə
nə bilim nələrlə...

Əslində bu məzmununa görə sənin ömrünə, tay-tuşlarının,bizim ömrümüzə daha uyğun gələn bir şeirdir, bir fəlsəfi yorumdur. Bəli, Tariyel Abbaslı bir atanın, bir ananın övladı olaraq doğuldu. Atası Allahverdi kişiyə allah rəhmət eləsin, anası Dilana anaya Allah rəhmət eləsin,cənnətməkan olsunlar. Çünki, elə yuxarıdakı şeirdə də çox gözəl deyilib: ana şəfqəti ən vacib,önəmli keyfiyyət kimi önə çəkilib. Tariyel uşaq yaşlarından gənclik çağlarınadək valideynlərinin hər ikisinin qayğısı və şəfqəti ilə əhatə olundu. Əslində, Dilana ananın dünyasını dəyişdiyi çox uzaq bir tarix deyil. Yubilyarımız 70 yaşının böyük bir hissəsində ana şəfqəti, ana nəvazişi görüb. Məlum məsələdir ki, valideynlər,istər ata olsun,istərsə ana, hər bir insanın ömründə heç bir şəxslə əvəzlənə bilməz. Onların şəfqəti hər zaman Tariyelə gərək oldu.

Vüsal, intizar həyatımızda həmişə gözlədiyimizə və ya gözlədiyimizə çatmaq həvəsi, arxasınca düşməyimizin marağı, intizarla yol gözləməyimiz-bütün bunlar hamısı bizim ömrümüzün bəzəyidir. Düşmən nifrəti isə, mənə elə gəlir ki, bütün Azərbaycanı çalxalayan düşmən nifrəti hamımızdan çox sənə məxsus oldu. Çünki, sən qarabağlı olaraq, Cəbrayıl doğumlu olaraq torpağı erməni işğalına düçar olan və bundan əvvəl də uğrunda mübarizə apardığın bu diyara sevgini, düşmənə nifrətini qəlbində, sözündə-söhbətində, bütün fəaliyyətində daha çox biruzə vermiş, ürəyində gəzdirmisən, dilində səsləndirmisən, mübarizə aparmısan. Konkret faktlarla bilirik ki, XX əsrin 89-90-cı illərində ziyalılarla, Cəbrayıl ziyalılarıyla, bütün Azərbaycanla birlikdə xan Araz üzərində, Xudafərin körpüsü üstündə, üçrəngli bayrağımız altında hayqırtılarınızla, çıxışlarınızla düşmənə nifrətimizi - nifrətini konkret olaraq ifadə eləmisən. Bu da bir təsadüf deyil ki, məcburi köçkünlük dövründə sən həmin o Xudafərinlə bağlı, konkret bir mövzu-Azərbaycan şifahi xalq ədəbiyyatı – folklorundan bir mövzu alaraq Aşıq Qurbaninin həyatını, yaradıcılığını tədqiq etdin. Qurbaninin Cəbrayıla bağlılığını, Şimali Azərbaycana bağlılığını sübut elədin.Yaxşı yadımdadır, AMEA-nın Folklor İnstitutunda İxtisaslaşdırılmış Elmi Şurada təşkil olunmuş "On altıncı əsr Azərbaycan aşıq yaradıcılığı (Aşıq Qurbani yaradıcılığı üzrə)" mövzusunda dissertasiya işini müdafiə edərkən elmi rəhbərin prof. Mürsəl Həkimovun, rəsmi opponentlərin Məhərrəm Cəfərov, Seyfəddin Qəniyev, müdafiə şuasının sədri Hüseyn İsmayılov, çıxış edən müdafiə şurası üzvləri Tofiq Hacıyev, Sədnik Paşayev, Seyfəddin Rzasoy, Paşa Əfəndiyev, Elxan Məmmədli... tədqiqatını yüksək qiymətləndirməklə yanaşı elmi araşdırmanda istifadə etmiş olduğun elmi mənbələr, elmi dəlillərin yerli yerində olduğunu, sənin isə araşdırıcılıq məharətini xüsusi olaraq dəyərləndirdilər. Elə buradaca müdafiədən sonrakı ziyafətdə xalqımızın mötəbər ziyalılarının çıxışları haqqında da ayrıca danışmağa dəyərdi. Ancaq dostumuz Əli Rza Xələflinin sənin həyat yolunla bağlı faktlar əsasında elədiyi çıxış indi də yadımdan çıxmır. Onun çıxışı bir çox məqamların üstünə işıq saldı. Xüsusilə sənin Cəbrayıl Tarix-diyarşünaslıq Muzeyini erməni işğalından xilas etməyini, bu yolda fədakarlığını qeyd etməsi unudulmazdır.

Bu sənin alimlik məharətin, bu sənin tədqiqatçılıq fəaliyyətindir. Eyni zamanda ədəbiyyatın tədqiqi, folklorun tədqiqi ilə bağlı yazdığın çoxsay-



lı əsərlər, doğma Qarabağın - Cəbrayılın tarixindən bəhs eləyən çoxsaylı əsərlərin sənin bir yetkin, püxtə publisist yazıçı kimi yetişməyinə xidmət etdi. Həmçinin, tədqiqatçılığınla bərabər əməldən də qalmadın, işdən də qalmadın. Çünki o tarixi öyrənə-öyrənə Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyinə rəhbərlik edirdin. Muzeyə rəhbərlikdə, həmin məqamda çox işlər gördün, özü də elə bir işlər gördün ki, bunun əvəzi, tayı-bərabəri yoxdur. Qarabağın bir parçası olan doğma Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyində saxlanan eksponatların zərrəsinə qədər, evinin əşyalarını çıxarmadan, işğaldan azad etdin. Və mənim nəzərimcə Azərbaycanın işğal olunmuş rayonları içərisində yeganə işğaldan azad olunmuş muzey Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyi idi ki, bunu sən etmişdin, sağ-salamat Bakıya gətirmişdin. Bu muzey indi də fəaliyyət göstərir və Cəbrayıla dönüşünü gözləyir. Bu illər ərzində eyni zamanda 27 il Azərbaycan Teleradio QSC-də çalışmaqla Cəbrayıla həsr olunmuş yüzlərlə ədəbi-bədii, elmi-publisistik verilişlər hazırladın.

Mənə elə gəlir ki, danışdığım mövzu bu deyil. Biz tələbəlikdən danışmalıyıq. Biz parta arxasında tanış olduq. Artıq mövcudluğunun 100 illiyini arxada qoymuş qocaman Azərbaycan Dövlət Pedaqoji Universitetinin,o vaxtkı Azərbaycan Pedaqoji İnstitutunun auditoriyalarında tanış olduq. Ayrı-ayrı müəllimlərimizin - elmimizin ağsaqqallarından olan Mirzə Feyzulla Qasımzadədən, İsmayıl Şıxlıdan, Afad Qurbanovdan,Məmmədhüseyn Təhmasibdən,Mirzə Ələkbər Sabirin yadigarı Məmmədsəlim Tahirlidən, Paşa Əfəndiyevdən, Əbdül Əlizadədən, Əbdüləzəl Dəmirçizadədən, Əhəd Əhmədovdan, Mürsəl Həkimovdan və bir çox digər müqtədir alimlərdən dərs aldıq.Adlarını sadaladığım və sadalamadığım müəllimlərimizin mühazirələrini dinlədik, bu dinləmələrdə çox şeylərin şahidi olduq və mənim yadımdan çıxmaz; Xarici ölkələr ədəbiyyatından dərs deyən müəllimimiz Məmmədbağır Həyatzadənin həm də bir artistlik qabiliyyəti vardı. Şota Rustavelinin yaradıcılığından mühazirəyə başlayan kimi "Ərəbistan torpağında şah Rostevan hökmdarmış" deyəndə.- Sən ayağa qalxıb ardını – "Ədalətli, mərhəmətli, möhtəşəmmiş, bəxtiyarmış" - deyə beyti tamamladın. Və sən bununla da bizim - tələbə yoldaşlarımızın və müəllimimzin rəğbətini qazandın. Və yaxud da müəllimimiz folklordan söhbət açanda sənin dilində səslənən, 2020-ci ilin noyabrında Zəfər bayramı günü Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azadlıq meydanında dediyi:

Arazı ayırdılar,
Qum ilə doyurdular.
Mən səndən ayrılmazdım,
Zülm ilə ayırdılar."

- bayatısını tələbə vaxtı auditoriyada ilk dəfə səndən eşitmişdim.Bu müəllimimizin verdiyi sərbəst çalışma üzrə yerinə yetirdiyin bir tapşırıq idi. Elə ondan da bizim aramızda xoş, ılıq münasibət yaranmışdı, bir-birimizə qarşı təmənnasız istək, oxumaq, öyrənməkdə bir-biri ilə fikir bölüşmək, tələbəlk həyatının ayrılmaz xatirəsi: - çörək bölüşmək ardıcıl gələn xarakter xüsusiyyələrinə çevrilmişdi. Bax bizim dost münasibətlərimiz belə yaranmışdı və mən hesab edirəm ki, ayrı-ayrı məsələləri çox sadalamaq, çox danışmaq olar. Amma mənə elə gəlir ki, bu da yetərlidir.

Yenə də "İki nöqtə arası"na dönək. Yəni insanın ömrünün başlanğıcı və sonu mövzusuna. Tariyel Abbaslı, sənə uzun ömür arzulayıram, amma biz bu iki nöqtə arasında yaşın 70-ə çatmasını qeyd eləyirik və bu müddətdə yenə nə qədər çox olsa da yenə az olan sevinclə, nə qədər az olsa da yenə çox olan kədərlə, nə bilim nələrlə dolu olan bu ömürdə biz həmişə bir-birimizin sevincli günlərimizdə də kədərli günlərimizdə yanında olduq. Elə bunu demək istəyirəm ki, Allah səni var eləsin, 70 yaşın mübarək olsun! Allahın verdiyi ömrü yəqin ki, 100-lə başa vurarsan, sonrasını özün bilərsən. İstəyirəm ki, balalarının xoşbəxtliyini görəsən, yaradıcılığında uğurlar, sağlam olmağını arzulayıram.

**2022**

